Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# *Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur*

**Bakı-2016**

Redaktor və buraxılışa məsul: **Şəhla Qəmbərova**

Tərtibçi: **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

"Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur" vətənpərvərlik mövzusunda hazırlanmış metodik vəsait / red. və bur. məs. Ş.Qəmbərova; tərt. ed. R. Məmmədli, S. Əhmədova. F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı. – 2016. – 60 s.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2016**

## Tərtibçidən

Vətən! Bu söz insanlarda daha dərin və əziz hisslər oyadır. Vətənə məhəbbət öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq lazımdır. Vətənpərvərlik əsrlərlə insanların qan yaddaşına həkk olunmuş hisslərdəndir. Vətəni sevmədən, qorumadan, ata-babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər yetirmək olmaz. Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə təhrik edən ən güclü mənəvi-əxlaqi hissdir. Bu hissi hələ uşaqlıq illərindən aşılamaq başlıca vəzifədir. Hərbi-vətənpərvərlik tərbiyəsi bu gün böyük əhəmiyyətə malikdir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müstəqil respublikamızın bugünkü durumu bunu bizdən tələb edir. Zəngin tarixi keçmişimizdən tutmuş bugünkü tariximizə qədər gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Gənclərimizi Koroğlu, Babək, Cavanşir, Mübariz və s. ruhunda tərbiyələndirmək ümdə vəzifəmiz olmalıdır. Bu baxımdan gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, hər bir oxucunun milli soykökümüzə, tariximizə, folklorumuza, min illərdən bəri xalqımızın yaratdığı mənəvi dəyərlərə dərindən yiyələnməsi üçün uşaq kitabxanalarında geniş imkanlar var.

Vətənpərvərlik vətəndaşlıq tərbiyəsinin əsasında duran ən ülvi bir hissdir. Bu gözəl və nəcib əxlaqi keyfiyyəti gələcəyin qurucularına aşılamaq biz kitabxanaçıların borcudur. Bu metodik vəsait məktəbli oxucular arasında hərbi-vətənpərəvrliyə aid ədəbiyyatın təbliğində uşaq kitabxanalarında çalışan kitabxanaçılara köməklik məqsədilə tərtib edilib.Vəsait 2 hissədən ibarətdir:

I. Vətənpərvərlik tərbiyəsi -ümummilli xilas yolumuzdur.
II.Vətənpərvərlik tərbiyəsi ilə bağlı keçiriləcək tədbirlər.

## *Vətənpərvərlik tərbiyəsi -ümummilli xilas yolumuzdur*

Vətən onun gözəlliyinin şahidi olan atlas çəmənlərdən, dibi görünməyən yamyaşıl meşələrdən, durna gözlü bulaqlardan, çoşqun çaylardan, mavi göllərdən başlanır. Vətən müqəddəsdir, ülvidir. Onun hər şeyi dağı, daşı, torpağı, suyu, səması bizim üçün əzizdir, doğmadır. Əgər öz yaşadığın yerin, oxuyub təhsil aldığın, boya-başa çatdığın torpağın keçmişini, bu gününü yaxşı bilməsən, onun sərvətini qorumaq, çoxaltmaq və gələcək nəsillərə saxlamaq qayğısına qalmasan, sən əsl vətəndaş ola bilməzsən.

Vətən…Bu kəlmə nə qədər də mənalı və dərindir. Deyilişi şirin olduğu kimi, məzmunu, qayəsi də yüksək və hikmətlidir. Biz ana dedikde vətəni, vətən dedikdə anamızı düşünürük. Çünki vətən də bizə anamız qədər doğma, anamız qədər əzizdir. Ana müqəddəsliyi vətən müqəddəsliyi, vətən ucalığıdır.

Azərbaycanımın, Odlar diyarının gözəllikləri haqqında şairlərimiz, yazıçılarımız çoxlu əsərlər yazmış, bəstəkarlarımız musiqi bəstələmiş yazıçılarımız öz əsərlərində dolğun əks etdirmişlər. Vətən sevgisi əzəli və əbədi bir qəlb odudur, heç vaxt öz təravətini və gücünü itirmir və elə buna görədir ki, insan bu sevgiyə köklənəndə dünyanın bütün gücü onun qoluna toplanır, göyün bütün işığı və nuru onun qəlbinə, fikrinə dolur. Biz bütün qəlbimizlə ana ocağa, ata yurdum Azərbaycana – Odlar diyarına, bu müqəddəs torpağa bağlıyıq. Onun fərəhi bizim fərəhimiz, onun kədəri bizim kədərimizdir.

İnsan qəlbinin ən böyük nəğməsi Vətən nəğməsidir. Sonsuz əngəlliklərə, doğma torpağa dikilmiş bütün məhəbbətli gözlər, hələ beşikdə çırpınan balaca körpələrimizin ürək qəlbləri ancaq bu nəğməni

zümzümə edir. Bu nəğməni hərə bir cür oxuyur. Onu döyüş harayi, Koroğlu nərəsi, qılınc zərbəsi ilə də oxuyanlar olub. Bulaq pıçıltısı, qadın isməti, Nigar vəfası, Həcər sədaqəti ilə oxuyanlar da.

Vətən sevgisi nədir? İlk baxışdan mücərrəd görünən bu anlayış əslində konkret əməllərdə təzahür edir.Vətəni sevmək,Vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmağa lüzum yoxdur. Fəhlə də, həkim də, alim də Vətən üçün yaşaya, öz əməli ilə Vətənin şöhrətini artıra bilər. Kifayətdir ki, ürəkdə təpər, istək, təəssübkeşlik olsun. Əsgər döyüş meydanlarında vuruşur, Vətən qarşısında borcunu səngərdə yerinə yetirir. Fəhlənin, mühəndisin əməyi ilə məmləkətin iqtisadi qüdrəti artır. Alim əməyi isə Vətən üçün Günəş işığı ilə müqayisə edilə bilər.

Vətəndaşlıq borcu ilk növbədə insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır.Vətən borcu vətəndaşlıq borcudur.

Vətən torpağı bizim üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Əsl vətəndaş odur ki, öz vətənini öz qəlbi ilə, canı və qanı ilə sevir. Onun azadlıq və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır. Vətən uğrunda canından keçən qəhrəmanlar əbədi bir həyata qovuşur, ölümlərindən sonra şərəflə yad edilirlər. Həyatdan nakam getmiş bu vətən övladları doğma yurda sədaqət rəmzi, məhəbbət sinvoludurlar. Onlar vətən uğrunda vuruşmuş, vətən uğrunda canlarını qurban vermişlər!

Eşq olsun belə qəhrəmanlara. Eşq olsun onların amalına məskəninə! Bax budur əsl vətəndaşlıq borcu, vətəndaşlıq amalı.

Biz “Vətən” anlayışını müqəddəsliyini dahi Üzeyirin Koroqlu uverturasını dinləyəndən, Sabirlə Mirzə Cəlili oxuyub dərk etməyə başlayandan duymuşuq. Bu müqəddəslik bizim qəlbimizə ana laylası, ana zümzüməsi ilə axıb gəlir.

Vətən təkcə torpaq, yurd-yuva deyil. Vətən bizik, hamımızıq. Onun dünəninə də, bu gününə də və sabahına da hamımız cavabdehik. Əməyimizlə lazım gəlsə canımızla və qanımızla.Vətən dəyişmir, satılmır, köhnəlmir, qocalmır. Bu müqəddəs məkanda keçmişlə gələcəyimiz qovuşur. O əbədi və əzəlidir. Onun göylərində əcdadlaımızın ruhları dolaşır. Bu vətəni bizlərə babalarımız ərmağan etmişlər. Əcdadlarımız onun uğrunda vuruşmuşlar, qan tökmüşlər, yağılardan qorumuşlar.

Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlık hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, millətə xidmət etməyi birləşdirirsə, bunların zirvəsində Vətən üçün ölümə hazır olmaq dayanır. Bu vətənpərvərliyin ən uca və ali formasıdır. Bəşər övladı Vətənə xidmət etməyin bundan uca zirvəsini kəşf etməmişdir. Vətənpərvərlik məsələsi cəmiyyətdə daim aktual olmuş, bu gün də aktual olaraq qalır. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməli desək, bəlkə də, səhv etmərik. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür. Əgər biz tarixi keçmişimizə nəzər salsaq, görərik ki, doğma yurdumuz Azərbaycanın igid, cəsur oğulları, qeyrətli qızları həmişə vətənpərvər olmuş, yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizə apararaq Vətənimizi düşmən ayağına verməmişlər. Mərd, mübariz oğul və qızlarımız öz doğma vətənlərini həmişə hərarətlə sevmiş, onun qədrini bilmiş, vətən naminə canlarını qurban verməkdən çəkinməmişlər. Bu igid Vətən övladları doğma yurd naminə canlarından keçməklə əsl

vətənpərvərlik nümunəsi göstərmiş, şərəfli bir iz qoyub getmişlər. Azərbaycan xalqının igid oğullarından Cavanşirin, Babəkin, Koroğlunun yadelli işğalçılara qarşı mübarizəsi tarixi keçmişimizdirsə, bu günümüzün qəhrəmanlıq tarixini bəzəyən oğul və qızlar son dövrlərin Qarabağ savaşının qəhrəmanları, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərdir.

Bəs Vətən sevgisi nədir? Üzərində həyat sürdüyümüz bu torpaq üçün lazım gələndə həyatını, sahib olduğu hər şeyi Vətən yolunda düşünmədən fəda edə bilmək duyğusunun təcəssümüdür Vətən sevgisi. Vətən sevgisi ən əsil, ən uca sevgidir. Məqamı gəlincə Vətən üçün döyüşmək də Vətən sevgisinin bir təzahürüdür. Unutmamalıyıq ki, biz Vətən uğrunda qanlarıyla dastanlar yazanların, şəhidlər verən bir millətin övladlarıyıq.

Heydər Əliyev Azərbaycan xalqının gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyatı əhəmiyyətli məsələ kimi baxmışdır. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşır, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkədələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə bütün fənlərin gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılamaq

üçün çox böyük imkanları vardır. Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəbin X-XI siniflərində oxuyan şagirdlərə və alı məktəbdə təhsil alan tələbə-gənclərə ayrı-ayrı fənləri və ixtisas kurslarını tədris edərkən hərbi məzmunlu biliklər də verilsin. Keçmiş Sovetlər birliyi dövründə mövcud dərsliklərdə, dərs vəsaitlərində və metodik ədəbiyyatda hərbivətənpərvərlik hissləri aşılayan məlumatlar və hərbi məzmunlu biliklər məxfilik üzündən verilmirdi. Əslində bu şüurlu surətdə edilirdi ki, gənclər vətənpərvərlik duyğularından məhrum olsunlar, vətənin müdafiəsi üçün lazımi bilikləri almasınlar. Artıq bu gün müstəqil Respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin-ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət-insan-vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək-mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perespektiv işlərində iştirak edən, insan yetişdirmək deməkdir. İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi yalnız özbaşına axınla korkoranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək

əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişməsi nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət- ənənələrini bilməlı, vətəni sevməlıdirlər. Bu sahədə biz kitabxanaçıların da üzərinə çox böyük məsuliyyət düşür. Uşaq kitabxanalarında çalışan kadrlar olaraq hər birimiz anlamalıyıq ki, uşaqlar ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbivətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Böyük Atatürk deyirdi ki, sülh istəyən xalq hərbə hazır olmalıdır. Bu çox dəyərli kəlamdır. Azərbaycan xalqı müharibəni arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarı olmuşdur. Hərbi – vətənpərvərlik tərbiyəsini sadəcə olaraq quru sözlərlə, nəsihətlərlə də məhdudlaşdırmaq olmaz. Müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılması, onun tərəqqisi naminə gələcəyin qurucuları olan bügünkü nəslin əsl vətəndaş kimi yetişməsi üçün, biz kitabxanaçılar xalqımızın tarixi keçmişini mükəmməl öyrənməyə səy göstərən məktəbliləri torpaqlarımızın bütövlüyü və toxunulmazlığı, azadlığı və müstəqilliyi yolunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin həyat və döyüş yollarını əks etdirən kitablarla tanış etməli, öz şərəfli ölümləri ilə ölümsüzlük zirvəsini fəth etmiş oğullarımızın qısa, lakin mənalı həyat yolları haqqında ətraflı məlumat verməliyik.

## II.Vətənpərvərlik tərbiyəsi ilə bağlı keçiriləcək tədbirlər.

İnsana məxsus yüksək mənəvi keyfiyyətlər sırasında vətənpərvərlik hissi mühüm yer tutur. Bu müqəddəs hissin lap kiçik yaşlardan tərbiyə edilməsi böyük əhəmiyyət kəsb edir. Bu sahədə məqsədəuyğun müvəffəqiyyət əldə etmək üçün bağçalarla, məktəblərlə yanaşı kitabxana da hər şeydən əvvəl öz işini düzgün planlaşdırmalı, il ərzində görəcəyi işləri müəyyənləşdirməlidir. Burada tədbirlər arasında yaradılacaq əlaqə nəzərə alınmalı, işin təşkili əsaslandırılmalıdır. Uşaqların vətənpərvərlik tərbiyəsinin kitabxanalarda təbliği oxucularla aparılacaq söhbətlər, keçiriləcək tədbirlər planlaşdırılmalıdır. Kitabxanada söhbət, biblioqrafik xülasə, oxucu konfransı, ədəbi-bədii gecə keçirmək olar. Bu gün kitabxana hərbi-vətənpərvərlik anlayışını oxuculara necə çatdırmalıdır. İlk növbədə uşaq və yeniyetmələrdə müharibə ilə bağlı təsəvvür yaratmaq məqsədilə kitabxanada sərgi təşkil olunmalıdır. Sərgidə kitab, qəzet və jurnal məqalələri ilə yanaşı hərbi-vətənpərvərlik mövzusuna həsr olunmuş şəkillər və foto şəkillər də nümayiş oluna bilər. Sərginin yanında ədəbiyyat siyahısı və kartoteka qutusu qoymaq olar. Sərgi aşağıdakı başlıqlar altında təşkil oluna bilər: “Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur”, “Tariximizin şanlı səhifələri”, “Heç kim və heç nə unudulmur”, “Qəhrəmanlıq zirvəsinə ucalanlar”, “Vətən bizi çağırır”, “Vətənpərvərlik - ən ülvi bir hissdir” və s. Sərgidə görkəmli şəxsiyyətlərin vətənpərvərlik haqqında söylədikləri fikirlərdən, sitatlardan istifadə etmək sərgini daha da məzmunlu və dolğun edər.













MUSTAFA ÇƏMƏNLİ
MÜBARİZ


KRİMİNAL
ELXAN ELATLI
Cəhənnəmdən
gələn səs


ƏLİ EYVAZOV
BİR BATALYONUN
TARİXİ


TAHİR PAŞA
BEŞ GÜRZƏ,...


XƏZAİL MUXTAROV
MÜHARİBƏ SƏNƏTİ


Etibar Muradxanlı
Siz
MÜHASİRƏDƏSİNİZ, LEYTENANT


Nizami Mirzə
QATİL
Bakı – 2006


SABİR ARAZLI ÖZGÜN
TANKÇI VALEH


Hərbi macəra kitabxanası
Ramiz CƏFƏROV
İKİQAT
MÜHASİRƏ


Oqtay Əliyev
Azərbaycanın
Milli Qəhrəmanı
ƏBƏDİYYƏTƏ
QOVUŞAN KOROĞLU


SEVİNC NURUQIZI
QİSAS


ANAMA
DEMƏYİN


KƏRİM SƏLİMOV
MÜCAHİD ŞAHİN


Mustafa Çəmənli
Fred
Asif


Fazil Güney
QARA QAN
1


Fazil Güney
QARA QAN
2


HACI ƏKBƏR RÜSTƏMOV
QALX AYAĞA,
VƏTƏN OĞLU!

AQİL ABBAS
DOLU

YUSİF ƏHMƏDOV
TORPAĞA
TÖKÜLƏN
QAN

Bəhlül Oruc
KÜSKÜN RUHLAR

BAHAR SONAM
QƏTL

XOCALI UŞAQLARI
QAN İÇİNDƏ QAR ÇİÇƏYİ

ELXAN ELATLI
Milli
Qəhrəman
Mübariz
İbrahimov
haqqında
roman
Qisas
gecəsi

BAHAR SONAM
SAHİBSİZLİK

GÜLXANİ PƏNAH
QARABAĞ
DƏRDİ

ƏLİSƏFA
AZAYEV
Qanlı
GÜNDƏLİK

ARZU
HACIZADƏ
BİR CÜT YARPAQ

Müslüm Əlioğlu
Gerçəkləşən
Xəyallar
Fərari-2
Ssenari-roman

ƏSİR
QADIN...
Meyxoş
Abdullah

Mahirə Abdulla
Əvvəl
Axır

Ağarəhim RƏHİMOV
ROMANLAR

ƏLÖVSƏT MURAD
AYRILIQ ÖLÜM
DEYİL

**Sərgidə görkəmli şəxsiyyətlərin vətənpərvərlik haqqında söylədiyi kəlamlardan, atalar sözlərindən istifadə edilir.**

1.Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

2.Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim vəzifəmiz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.

**Ümummilli lider Heydər Əliyev**

2.Dağlıq Qarabağ bizim torpağımızdır, tarixi Azərbaycan torpağıdır və biz onu istənilən yolla, istənilən vasitə ilə işğaldan azad etməliyik. Ona görə də iqtisadiyyat daha da inkişaf etməli, daha güclü ordu yaranmalı, gənclərimiz hərbi vətənpərvərlik ruhunda daha yüksək dərəcədə tərbiyə olunmalıdırlar".

**İham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

3.Əsil yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsil vətənpərvərliklə uyğunlaşdırsın.

**Azərbaycan dramaturgiyasının banisi. M.F.Axundzadə**

4.Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

**İctimai-siyasi xadim,yazıçı N.Nərimanov**

5.Namuslu insan olmaq istəyirsənsə, ömrünün mənasını vətənə xidmətdə gör.

**Rus dramaturqu D.İ.Fonvizin**

6.Özünü vətəndaş zənn edən bir kəs Vətənin dərdinə yad qala bilməz! **Rus şairi N. A. Nekrasov**

7.Həqiqi namuslu insan ailəsini özündən, vətənini ailəsindən, insanlığı isə Vətənindən uca tutmalıdır.

**Fransız riyaziyyatçısı J. L. Dalamber**

8.Vətən uğrunda ölüm həyatın davamıdır.

**Qazax şairi Cambul Cabayev**

9.Vətənin böyüklüyü onun siravi vətəndaşlarının böyüklüyü ilə müəyyən olunur.

10.Vətənpərvərlik - ən dərin hörmətə layiq gözəl bir keyfiyyətdir.

11.Vətəni olmayan insan nəğmə oxuya bilməyən bülbül kimidir.

12.İnsanın ləyaqəti onun vətənpərvərliyinin gücü ilə ölçülür.

Müasir dövrümüzdə uşaq kitabxanalarının qarşısında duran əsas vəzifələrdən biri də gənc nəslə vətənpərvərlik hissləri aşılamaqdır. Bu baxımdan uşaq kitabxanalarında oxucularla aparılan fərdi söhbətlərin əhəmiyyəti böyükdür. Kiçik və orta yaş oxucular arasında müharibə mövzusunda icmallar, söhbətlər aparmaq yerinə düşər. Söhbət apararkən oxucuların yaş xüsusiyyətinə və dil sadəliyinə diqqət yetirilməlidir. Azərbacan ədəbiyyatında müharibə mövzusu ilə bağlı yazıçı və şairlərimizin gözəl əsərlərindən istifadə

edərək söhbət zamanı oxucuya məlumat vermək olar. Məsələn: S. Nuruqızının “Qisas”, Ə. Quluzadənin “Qadan mənə Qarabağ”, E.Elatlının “Qisas gecəsi”, S. Müslümqızının “Onlar heç vaxt böyüməyəcək”, G. İbrahimovanın “Evin kişisi”, Ə. Cəmilin “Can nənə bir nağıl de...” şeiri, Ə. Məmmədxanlının “Buz heykəl”, T. Hüseynovun “Qolsuz kukla”, Ə. Hacızadənin “İki əsgər” hekayələrini oxumağı uşaqlara təbliğ etmək məqsədilə kitabların icmalını keçirmək lazımdır. Orta yaş qrup oxucular arsında “Müharibə uşaqların gözü ilə” mövzusunda rəsm müsabiqəsi keçirmək olar: Müsabiqə keçirilməzdən əvvəl kitabxanaçı oxucuları mövzu haqqında məlumatlandırmalı, uşaqlara şərait yaratmalıdır ki, onlar öz düşüncələrini çəkdikləri şəkillərdə əks etdirə bilsinlər. Müsabiqə uşaqlar arasında demokratik səsvermə yolu ilə keçirilir. Rəsm işləri əvvəlcədən nömrələnir, kitabxananın oxu zalında divardan və yaxud rəsm sərgisi üçün nəzərdə tutulan guşədə öz əksini tapır. Müsabiqə günü təyin olunur və elan kitabxananın girəcəyində asılır. Tədbirdə oxucular bəyəndikləri işlərin nömrəsinə uyğun olaraq 1, 2, 3-cü yerlərin qaliblərinə səs verirlər. Ən çox səs toplayan iştirakçılar –müsabiqənin qalibləri tutuduqları yerə görə kitabxana rəhbərliyi tərəfindən hədiyyələrlə mükafatlandırılırlar. Bundan başqa kitabxanada orta və böyük yaş qrup oxucular üçün Milli qəhrəmanlarımızla, müharibə veteranları ilə görüş təşkil etmək daha maraqlı olar. Çünki uşaqlar görüşdə müharibənin canlı şahidləri ilə yaxından tanış olar, kitablardan oxuduqları, filmlərdən gördükləri hadisələri bir daha onların dilindən eşidərlər. Kitabxanaçı görüşə dəvət olunan veteranlarla əvvəlcədən görüşüb vaxtı müəyyənləşdirməlidir. Qeyd etmək lazımdır ki, görüş keçiriləcək yerdə sərginin təşkili olduqca zəruridir. Həmçinin yaxşı olardı ki, sərgidə görüşə dəvət olunan veteranlar haqqında məqalələr nümayiş olunsun. Aparıcı

görüşə çağrılan şəxs haqqında məlumatlar əldə etməli, bu məlumatlar əsasında çıxış edərək onu oxuculara təqdim etməlidir. Bundan sonra qonağa söz verilir. Görüşün sonunda oxucular qonağa suallarla müraciət edə bilər. Məsələn:

**1.Sizin fikrinizcə vətənpərvər kimdir?**

☺ -------------------------------------------

**2.Vətəni nə üçün sevmək lazımdır?**

☺ ________________________________

**3.Siz böyüyəndə hansı sənəti seçəcəksiniz və öz sənətinizlə xalqımız üçün nə kimi işlər görərdiniz?**

☺ ________________________________

**4.Yaxşı insan kimdir?**

☺ ________________________________

**5.Valıdeynlərinizi nə üçün sevirsiniz?**

☺ ________________________________

**6. Vətəndaşlıq borcu nədir?**

☺ ________________________________

**7.Vətən uğrunda canlarından keçən şəhidlərimizi necə yad edirsiniz?**

☺ ________________________________

**8. 20 yanvar hadisəsi neçənci ildə və nə üçün baş verdi?**

☺ ____________________________

**9. Xocalı faciəsindən neçə il ötür?**

☺ ____________________________

**10. Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarından, Milli qəhrəmanlarımızdan kimlərin adını deyə bilərsiniz?**

☺ ____________________________

Yuxarı sinif şagirdləri ilə vətəndaşlıq hissinin təbliği formalarından biri də rəy sorğularıdır. Rəy sorğusunun nümunəsini sizə təqdim edirik.

**1.Vətənpərvərlik nədir?**

A) vətənə məhəbbət
B) vətəni hər yerdə təbliğ etmək
C) vətəni qorumaq
D) daxili hiss
E) ailəyə, cəmiyyətə, ümumiyyətlə Azərbaycana olan məhəbəbbət

**2.Vətənpərvərlik hisslərini öz yaşıdlarınızda necə qiymətləndirirsiz?**

A) ürəkaçan deyil
B) ürəkaçandır
C) zaman keçdikcə daha yaxşı olacaq
D) hazırda bu hiss olduqca güclüdür
E) ☺ ----------------------------------------

**3.Vətənpərvərlik hissi necə formalaşmalıdır?”**

A) ailədə

B) uşaq baxçasında, orta məktəbdə

C) ali təhsil ocaqlarında

D) ictimai təsisatlar vasitəsilə

E) insanın öz daxilində

F) hər yerdə, cəmiyyətdə, hərtərəfli və s.

**4.Gənclərdə vətənpərvərlik hisslərinin artırılması üçün nə edilməlidir?”**

A) heç bir şey

B) o daxildə formalaşmalıdır

C) orta məktəblərdə təbliğ edilməlidir

D) bu iş televiziya və radiolarda güclənməlidir

E) mədəniyyət ocaqları vasitəsilə

F) uşaq yaşlarından valideynlərin düzgün tərbiyəsi

**5.Sizcə vətənpərvərliyin inkişafı üçün nə etmək lazımdır?**

A) vətənə ürəkdən bağlanmalıdırlar, sevməlidirlər

B) daxili təşəbbüs göstərilməlidir

C) birləşməlidirlər

D) dərnək və klublar yaratmalıdırlar

E) heç bir şey etməməlidirlər

F) bacardığını etməli, döyüşə getməli, təbliğat aparmalı, özünü dərk etməli, örnək olmalı, düşmənləri qırmalı və şəhid olmalı

**6.Ən son vətənpərvərlik mövzusunda hansı kitabları oxumusunuz?**

N. Məmmədli ”Zəngulə”; B. Vahabzadə “Şəhidlər” poeması; Z. Yaqub “Xocalı” poeması; S. Nuruqızı “Qisas”; Ə. Quluzadə “Qadan mənə Qarabağ”; E.Elatlının “Qisas gecəsi”; S. Müslümqızının “Onlar heç vaxt böyüməyəcək”; G. İbrahimovanın “Evin kişisi”; Ə. Cəmil “Can nənə bir nağıl de...” şeiri, Ə. Məmmədxanlı “Buz heykəl” və s.

☺ ------------------------------------------------------

**7. Vətənpərvərlik mövzusunda yazan yazıçılardan, şairlərdən kimləri tanıyırsınız?**

**B.Vahabzadə; S.Vurğun; Ə.Cavad; Ə.Məmmədxanlı; E.Elatlı; S.Müslümqızı; N.Məmmədli; Ə. Cəmil və s.**

☺ -----------------------------------------------------

Kiçik yaşlı uşaqlara isə vətənpərvərlik hissi bir neçə yolla aşılanır. Kitabxanaçılar uşaqlarda doğma Vətənə, onun başı qarlı dağlarına, bol-bəhrəli düzlərinə, min cür nemət yetirən müqəddəs torpağına, durna gözlü bulaqlarına, ucu-bucağı görünməyən meşələrinə məhəbbət hissi tərbiyə etmək işində bədii əsərlərdən, söhbətlərdən, musiqi əsərlərindən, ekskursiyalardan, foto-albomlardan, rəsm müsabiqələrindən, ucadan oxudan geniş istifadə etməlidir. Kiçik yaşlı oxucular vətən haqqında bilgilərini ilk əvvəl ailədə, uşaq bağçasında, sonra məktəbdə, daha sonra kitabxanalarda zənginləşdirirlər. Bu məqsədlə hərbi-vətənpərvərlik tərbiyəsinə diqqətlə yanaşmaq lazımdır. Uşaqları xalqımızın adət-ənənələri və sərvətləri ilə tanış etmək, vətəni qorumağın hər bir kəsin müqəddəs borcu olduğunu onlara aşılamaq lazımdır.

Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsini formalaşdırmaq üçün ilk əvvəl onlara Vətənin gözəlliklərindən danışmalı, Vətənin təbiətini sevməyi öyrətmək lazımdır. 3 yaşından başlayaraq uşaqlara Vətən haqqında şeirlər əzbərlətməli, nağıllar oxunmalı, qəhrəmanlardan danışılmalıdır. Uşaqların yaşlarını nəzərə alıb sadə və qısa başlıqlı sərgilər tərtib etmək lazımdır. Sərgilərə “Azərbaycan – Vətənim mənim”, “Azərbaycan qəhrəmanlar yurdudur”, ”Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur”, “Doğma yurda bağlılıq Vətən sevgisindən qaynaqlanır”, “Biz Milli Ordumuzla fəxr edirik” adı vermək olar. Uşaqlar üçün sərgi təşkil edərkən yazıçı və şairlərimizin vətən haqqında yazdığı kitablardan və eyni zamanda vətənə aid şeir parçalarından, milli

qəhrəmanlarımızın şəkillərindən istifadə oluna bilər. Sərgilər hazır olduqdan sonra tədbirlər keçirmək olar.

Kiçik yaşlı uşaqlar üçün təşkil edilən tədbirlərin ən maraqlısı səhərcikdir. Səhərciyin uşaqlar üçün əhəmiyyəti böyükdür. "Vətən" (Abbas Səhhət), "Öz vətənimdir" (Mirvarid Dilbazi), "Azərbaycan" (Səməd Vurğun), "Bir parça torpaq" (Əli Səmədli), "Vətəni də sevirəm" (Rafiq Yusifoğlu), "Ey anam, Azərbaycan" (Hikmət Ziya) və "Qaranquş" (Xəlil Rza Ulutürk) şeirləri üzrə səhərciyin və ucadan oxunun hazırlanması daha yaxşı olar.

Əli Səmədlinin "Bir parça torpaq" hekayəsi üzrə hazırlanmış səhərcik məktəb yaşlı oxucular üçün daha maraqlı olar. Kitabxanaçı əvvəlcə hekayəni oxucuların mütaliəsinə verməli, sonra sinif rəhbərlərinin köməyi ilə tədbiri birgə həyata keçirməlidir.Yaxşı olar ki səhərcik kitabxananın nağıl otağında keçirilsin. Səhərcik aşağıdakı kimi hazırlana bilər. Səhnə hekayəyə uyğun dekorasiyalarla bəzədilir.Uşaqlar hekayənin qəhrəmanlarının libasında səhnəyə daxil olurlar.

Kitabxanaçı: Bir gün düşmən öz pis niyyəti ilə kəsdirdi qapını. Mahalın igidləri silaha sarılıb atıldılar at üstünə. Böyük ata səbr edin görək, igidlərim, dedi. İgidlər dayandı. Düşmən elçiləri gəlib çıxdı.

Böyük ata: Xaqanınız nə istəyir?

Elçi: Ulu Xaqanımız xərac istəyir.

Kitabxanaçı: İgidlər hiddətləndi bu sözlərdən. Böyük ata sakitləşdirdi onları.

Böyük ata: Verin, igidlərim, təki dava olmasın.

Kitabxanaçı: Elci yenə gəldi.

Böyük ata: İndi tələbiniz nədir?

Elçi: Ulu Xaqanımız sizin şəxsi döyüş atınızı istəyir.

Kitabxanaçı: İgidlər bu sözləri eşitdikdən sonra "biz dava istəyirik" bağırdılar.

Böyük ata: Verin, igidlərim, təki qan-qada olmasın.

Kitabxanaçı: Elci yenə gəldi.

Böyük ata: Daha nə istəyirsiniz?

Elçi: Ulu Xaqanımız sizin yeganə oğlunuzu özünə nökər etmək istəyir.

Kitabxanaçı: İgidlər yenə qışqırdılar. Böyük ata sakitləşdirdi onları.

Böyük ata: Verin, bu davada öləcək igidlərimiz mənim bir oğlumdan heç də artıq deyil.

Kitabxanaçı: Böyük ata sevindi ki, bununla qan-qada sovuşub getdi, amma belə olmadı. Elçilər yenidən gəldi.

Böyük ata: İndi nə istəyirsiniz?

Elçi: Ulu Xaqanımız mahalınızdan məskən salmaq üçün bir parça torpaq istəyir.

Böyük ata: Ən böyük sərvət bir parça torpaqdır, böyük qeyrətdir bir parça torpaq. Haydı, mənim igidlərim! Düşmən həddini aşdı! Ona aman verməyin! At mənim idi verdim, oğul mənim idi verdim, torpaq isə xalqındır. Onun bir qarışını belə verə bilmərəm!

Kitabxanaçı: İgidlər Böyük atanın sözündən sonra atlandılar at belinə. Dava başladı, nə başladı. Qılınclardan şimşək qopdu. Analar, bacılar da kişi paltarı geyib, qılınc götürüb döyüşə yollandılar.

Bircə günün içində düşməni məğlub
etdilər.

Səhərciyə yekun vurduqdan sonra kitabxanaçı uşaqlara beləcə torpağı qorumağı, sevməyi tövsiyə etməlidir. Həmçinin vətənpərvərlik mövzusunda "Nağıl otağı"nda təşkil edilən ucadan oxu kiçik yaşlıların sevimli tədbirlərindəndir. Mirvarid Dilbazinin "Azərbaycanım " şeirinin ucadan oxusunu keçirmək onlar üçün maraqlı olar:

Torpağı – türbət,
Suları - şərbət ,
Günəşi – məlhəm,
Ayrılığı – qəm
Azərbaycanım!
Aranı, dağı,
Tərlan oylağı,
Könlüm çırağı,
Qızılgül bağı
Azərbaycanım!
Ana nəfəsim,
Qaranquş səslim,
Ellim, obalım,
Dağlar havalım
Azərbaycanım.
Qızları dilbər,
Qğulları ər,
Odum, ocağım,
Ana qucağım,
Qalsam həyatım,
Ölsəm torpağım
Azərbaycanım!

Vətənpərvərliklə bağlı uşaq kitabxanalarının "Nağıl otağı"nda mənəvi abidəmiz olan, 1300 ildən də çox qədim bir tarixə malik olan "Kitabi-Dədə Qorqud" dastanının təbliği mövzusunda məktəblilərlə söhbət təşkil etmək olar.

Vətənpərvərlik tərbiyəsinin əsas amili olan bu dastan kökünə sadiqlik, milli adət-ənənələrimizə hörmət kimi hisslər tərbiyələndirməkdə başlıca rol oynayır. Salur Qazan, Beyrək, Qaraca Çoban kimi qəhrəmanlarımızın simasında qeyrət, cəsarət simvollarına çevrilmiş oğullardan nümunə götürən yeniyetmələrimiz milli köklərimizə bağlılıq ruhunda tərbiyə olunurlar. "Kitabi-Dədə Qorqud" dastanındakı "Basatın Təpəgözü öldürdüyü boy" hər birimizə tanışdır. Kitabxanaçı bu boyu aşağı sinif məktəblilər arasında təbliğ edərkən Basatın vətənpərvərliyini, doğma yurda, elinə, obasına sönməz sevgisini, qorxunc yağı qarşısında əyilməzliyini  və cəsarətini ön plana çəkməlidir. Kifayət qədər şan-şöhrət sahibi olan Basat Təpəgözün üstünə bəlkə getməyə də bilərdi. Ancaq ana yurda məhəbbət, amansız düşmənin qəddarlığı, Oğuz elinin üstünü alan təhlükə onu bu nəhənglə ölüm-dirim mübarizəsinə sövq edir. Ata-anası ağlayıb sızlasa da Basat öz  yolundan dönmür. Hətta Oğuz elinin bəylərbəyi Qazan xan da Təpəgözlə  savaşın çox qorxulu olduğunu  Basata anlatmağa, onu bu yoldan döndərməyə çalışır.

Böyük nəhəng oldu Təpəgöz,
Göydə çevirdim yıxa,
bilmədim  Basat!
Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa,
bilmədim, Basat!
Ağsaqqallı atanı ağlatma!
Ağbirçəkli ananı zarıldatma!

Bu sözlərdən real təhlükənin nə qədər qorxulu olduğu anlaşılır. Çünki bütün oğuz elinin dövləti, "ümmət soyunun  aslanı, qalmış yigit arxası" kimi tanınan Qazan xan belə Təpəgözün qarşısında acizliyini bildirir. Kitabxanaçı nağıl otağında uşaqların diqqətini  misralara cəlb edərək, Basatın nə qədər cəsarətli və təhlükəli bir addım atdığını,

fəqət bu addımın nəcib bir məqsədlə - xalq, doğma yurd və onun övladları naminə atıldığını qeyd etməli, gənc nəslə vətənpərvərlik tərbiyəsi aşılamalıdır.

Vətənpərvərlik tərbiyəsinin ən mühüm amillərindən biri doğma ana dilimizi gələcəyin vətəndaşlarına sevdirməkdən ibarətdir. Xalqımızın folklorla yoğrulmuş təfəkkür süzgəcindən keçərək cilalanan və bu gün milyonlarla azərbaycanlının mənəvi sərvətinə çevrilən doğma dilimiz haqqında ulu öndərimizin bir kəlamında deyilir: "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır". Bunu nəzərə alaraq kitabxanaçı uşaqlarla dilimiz haqqında söhbətlər aparmalı, onlara ana dilimizi bütün dillərdən üstün tutmağı öyrətməlidir.

Məktəbli oxucular yetkinlik astanasında olarkən hər bir addımını fikirləşir, onu əhatə edən mühitin, həyat hadisələrinin təsirinə qapılırlar. Onlar daha çox bədii ədəbiyyat oxuyur, öz ideallarını ədəbiyyatda axtarırlar. Onların marağını nəzərə alıb kitabxanaçılar onlara Babək, Cavanşir, Koroğlu, Nəbi, Həzi Aslanov, Mehdi Hüseynzadə, Hüseynbala Əliyev, Çingiz Mustafayev, Salatın Əsgərova, Əlif Hacıyev, Fərid Əhmədov, Mübariz İbrahimov və digər qəhrəmanların həyatından, keçdikləri döyüş və mübarizə yollarından, qəhrəmanlar haqqında çoxlu kitabların yaranmasından bəhs etməli, hərbi vətənpərvərliyə aid kitabların oxunmasını tövsiyə etməlidir ki, onlar Vətənə sədaqət ruhunda böyüsünlər, Vətən, xalq uğrunda çalışmağı ən ümdə vəzifə hesab etsinlər. Oxucular belə kitabları oxuduqda igidlik, qəhrəmanlıq haqqında geniş məlumatlanacaq, Vətənə daha da sadiq olacaqlar. Eyni zamanda onlarda nəcib əxlaqi keyfiyyətlər yaranacaqdır. Vətən yolunda qəhrəmanlıq göstərmək ideyası onları həmişə düşündürəcəkdir. Kitabxanada hərbi-vətənpərvərliyə aid kitabları oxuculara tövsiyə etmək üçün **"Əziz oxucular!**

**Sizin üçün hərbi vətənpərvərlik kitablar həftəsi”** başlığı altında sərgi və müsabiqə keçirmək olar. **“Hərbi vətənpərvərlik kitablar həftəsi”** ən azı bir həftə davam etməli və həftə ərzində sərgidə nümayiş olunan kitablar oxuculara mütaliə üçün verilməlidir. Həftənin sonunda ən çox mütaliə edən oxucu kitabxana müdiriyyəti tərəfindən **“Əsl vətənpərvər oxucu”** diplomu ilə mükafatlandırıla bilər.

Kitabxanada uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində söhbət ən təsirli vasitələrdəndir. Kitabxanaçı gündəlik iş prosesində bu tədbirdən geniş istifadə etməlidir. Söhbət elə qurulmalıdır ki, oxuculara təsir etsin, onları həyəcanlandırsın. Uşaqlar müharibənin dəhşətlərini gözləri qarşısında canlandıra bilsinlər. Məsələn, Sevinc Nuruqızının “Qisas” povesti Dağlıq Qarabağ müharibəsinin dəhşətlərini gözləriylə görmüş, ermənilər tərəfindən min cür işgəncələrə dözən ana və balanın taleyindən söhbət açır. “Qisas” povestindən söhbət apararkən kitabxanaçı obrazı elə təsvir etməlidir ki, o oxucunun gözləri qarşısında cərəyan etsin, qəhrəmanın daxili aləmi ilə yaşasın. Yuxarıda qeyd etdiyimiz kitabın müzakirəsini keçirmək daha yaxşı nəticə verər. Kitab oxucular arasında müzakirə obyektinə çevriləcək, kitabın oxucular arasında təbliği genişlənəcəkdir.

Viktorinaların təşkili orta və böyük yaş qrup oxucular üçün daha yaxşı olar. Viktorinanın suallarını təqdim edirik:

1. Azərbaycan Respublikasının ərazisi neçə kv km-dir? – 80, 600 kv.km.
2. Azərbaycan Respublikaslnın Dövlət Bayrağının üzərindəki rənglər nəyin simvoludur? – Mavi- türkçülüyün, qırmızı- müasirlik və demokratiyanın, yaşıl- islamın.

3. Azərbaycan Respublikasının Dövlət Gerbinin üzərindəki simvollar nəyi bildirir? – Qalxan və ulduz sağanaqları Vətənimizin cənnət məskəni olmasını, alov – odlar yurdunu, palıd yarpaqları – uzun ömürlülüyün və möhkəmliyin, sünbül – bərəkət və bolluğun rəmzidir. Simvollar "müharibə istəmirik, lakin hər cür hücumdan müdafiə olunmağa hazırıq" fikrini ifadə edir.
4. Azərbaycanı 2 hissəyə bölən müqavilə hansıdır? – Türkmənçay.
5. Azərbaycan xalqının ana kitabı – "Kitabi-Dədə Qorqud" dastanı nə vaxt yaranıb? – VII-IX əsrlərdə.
6. Azərbaycan Milli Qəhrəmanlarından kimləri tanıyırsınız?- Çingiz Mustafayev, Allahverdi Bağırov, Əlif Hacıyev, Vüqar Hüseynov, Məhərrəm Seyidov, Əsəd Əhmədov, Şirin Mirzəyev, Fərid Əhmədov, Mübariz İbrahimov və başqaları.
7. Bu qəhrəmanlar haqqında yazılmış hansı kitablar var? – İ.İbadoğlu "Sərkərdə", A.Kərimli. "Zəngilan şəhidləri", S.Müslümqızı "Qar üstünə qan yağırdı", "Xocalı uşaqları-qan içində qar çiçəyi", B.Səmədov, S.Aslanov "Təki Vətən yaşasın", M.Süleymanov "Milli Qəhrəmanlar", E.Elatlı "Qisas gecəsi", "Cəhənnəmdən gələn səs", G.Pənah "Qarabağ dərdi", M.Çəmənli "Mübariz" və s.
8. Azərbaycan torpağının işğal olunmuş rayonları hansılardır? – Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan.
9. Qarabağ müharibəsi nə vaxt başlamışdır? – 1988-ci ilin fevralında.
10. Azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırım faciəsi nə vaxt törədilmişdir? – 1918-ci il 31 mart.

11. Böyük Vətən müharibəsi illərində neçə nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür? – 23 nəfər.
12. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseyzadədən bəhs edən kinonun adı nədir? – "Uzaq sahillərdə".
13. "Sizi dünyalar qədər sevirəm" bədii filmi kimə həsr olunub? – Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova.
14. Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə neçənci ildə qayıtmışdır? –
1993-cü il 3 oktyabr.
15. "Əsgər marşı"nın musiqisi kimindir? – Cavanşir Qulieyvin.
16. "Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim" misralarının müəllifi kimdir? – Xalq şairi Məmməd Arazın.

Sualların sayını artırmaq da olar. Sualları düzgün cavablandıran oxucular müxtəlif hədiyyələrlə mükafatlandırıla bilər.

Uşaqlar gördüyü, eşitdiyi, müşahidə etdiyi hadisələri müzakirə etməyə, ona öz münasibətini bildirməyə daha çox cəhd edirlər. Kimin doğru, kimin səhv, kimin pis, kimin isə yaxşı hərəkət etdiyini öyrənmək istəyirlər. Uşaqlar ictimai-siyasi hadisələrə də etinasız yanaşa bilmir. Xoşbəxtlik, qəhrəmanlıq, ədalət və s. haqqında mübahisə etməyə, fikrini bildirməyə, öz sözünü deməyə çalışır. Bu məsələlərin düzgün təhlil edilməsi və başa düşülməsində təşkil olunan disputların böyük əhəmiyyəti vardır. "Kimə qəhrəman deyirik" adlı disputun keçirilməsi daha məqsədəuyğun olar. Disput kitabxanaçının qısa müsahibəsi ilə başlanmalıdır. O, müzakirə ediləcək mövzunu oxuculara bildirməlidir. Daha sonra oxucuların çıxışları başlanmalıdır. Belə tədbirlərdə oxucular öz bilik dairələrini və təfəkkürlərini daha da zənginləşdirə bilirlər. Tədbirin sonunda maraqlı çıxışla öz

obyektiv fikrini bildirən oxucu kitabxanaçı tərəfindən mükafatlandırıla bilər.

Oxucular arasında hərbi vətənpərvərlik mövzusunda “Azərbaycan gəncini necə görmək istərdim” inşa yazı müsabiqəsi və yeniyetmələrin rəsm əsərləri sərgisi keçirmək olar. Milli və hərbi-vətənpərvərlik mövzusunda müsabiqələrin daha da genişlənməsi oxucuların marağını və bu istiqamətdə biliklərini artırır.

Hərbi-vətənpərvərlik hissinin oxuculara aşılanması üçün uşaq kitabxanalarında Milli Ordunun əsgər və zabitləri ilə görüşlər keçirmək yaxşı olar. Görüşdə əsgər və zabitlər uşaqlara göstərdikləri şücaətdən, azğın düşmənlə necə vuruşduqlarından bəhs etməli, oxucular tərəfindən vətənpərvərlik mövzusunda şeirlər söylənilməli, nəğmələr oxunmalıdır. Belə görüşlərin keçirilməsi onlarda Azərbaycan əsgəri olmaq və vətənin keşiyində dayanmaq hissini bir daha gücləndirər.

Böyük yaşlı oxucuların yaş xüsusiyyətini və zövqünü nəzərə alıb kitabxanada guşə təşkil etmək yerinə düşər. Çünki guşə sərgiyə nisbətən geniş olur. Guşədə kitabdan başqa qəzet və jurnal məqalələri, ədəbiyyat tövsiyə siyahıları, mövzuya uyğun şəkillər nümayiş olunur. Guşənin birinci hissəsini ulu öndər Heydər Əliyevə həsr etmək olar. Çünki məktəblilərin vətənpərvərlik tərbiyəsində ən başlıca yeri görkəmli şəxsiyyət, müdrik və aqil bir insan, xalqı özünə böyük dayaq hesab edərək xalq üçün çox böyük işlər görən, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi sahəsində böyük xidmətləri olan ulu öndər Heydər Əliyevin həyatı, fəaliyyəti və ömür yolunun mənalı səhifələrinin vərəqlənməsi tutur. Bu aqil insanın simasında Vətənə məhəbbətin, torpağa bağlılığın, vətənpərvərliyin gözəl nümunələrini görən oxucuların hər biri bu böyük şəxsiyyətdən əxlaqi keyfiyyətlər əxz edirlər. Oxucular özlərini doğma vətəni Azərbaycanın layiqli vətəndaşı sayır,

özlərində onun müdafiəsinə hazır olduqlarına əminlik yaradır. Bir vətənpərvər şəxsiyyət kimi kitabxanada ulu öndərə həsr edilən "Biz qalib gələcəyik!" başlığı ilə poeziya gecəsi keçirmək olar.

Poeziya gecəsində ilk öncə aparıcı ulu öndərin həyat və fəaliyyətindən, Azərbaycan Respublikasının azad, müstəqil bir dövlət kimi tanınmasında gördüyü işlərdən danışmalı, sonra ulu öndərə həsr olunmuş şeirlər dinlənilməlidir. Bundan əlavə "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda rəsm müsabiqəsi keçirilə bilər. Müsabiqənin vaxtı bitdikdən sonra oxucuların rəsmlərinin sərgisi keçirilməli və münsiflər heyəti tərəfindən qaliblər müəyyənləşdirilməli və mükafatlandırılmalıdır.

Azərbaycan vətənpərvərliyinin əsas mənbəyi bizim ədəbiyyatımızdır. İlk növbədə Mirzə Fətəli Axundovun maarifçilik ənənələri, Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Səməd Vurğun və s. klassiklərimizin yaradıcılığının vətənpərvərlik prinsipləri həmişə uca tutulmalıdır. Belə ki, bu klassiklərimizin əsərləri əsasında "Torpaq, uğrunda ölən varsa, Vətəndir", "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı", "Vətəndaşlıq borcumuz" və s. mövzularda oxucu konfransı, müzakirələr, ədəbi-bədii gecələr hazırlamaq olar.

Vətənpərvərlik mövzusunda kitabların oxucular arasında təbliği üçün daha böyük vaxt tələb edən tədbirlərdən – oxucu konfranslarından da istifadə etmək olar. Oxucu konfransları geniş oxucu kütləsinin dərin marağına səbəb olan tədbirlərdəndir. Müxtəlif yazıçıların vətənə, qəhrəmanlara aid əsərləri üzrə oxucu konfranslarının keçirilməsi mümkündür. Oxucu konfransının keçirilməsinə 1,5-2 ay qalmış mövzu seçilməli, hazırlıq işləri görülməlidir. Kitabxanaçı konfransda iştirak edəcək hər bir oxucunu ədəbiyyatla təmin etməlidir. Məsələn: Elxan Elatlının

“Qisas gecəsi” əsəri üzrə oxucu konfransının keçirilməsi mövzuya daha uyğun gəlir. Konfransın daha maraqlı və səmərəli keçməsi üçün kitabxanaçı tədbirə bir ay qalmış kitabı oxuculara təqdim etməlidir. Oxucu konfransına əsərin müəllifini, müəllimləri, zabitləri dəvət etmək olar. Konfransda ilk əvvəl kitabxanaçı özü çıxış etməli, əsər haqqında danışmalıdır. Kitabxanaçının çıxışı:

Kitabxanaçı: “Əziz oxucular! Bu günkü konfrans Elxan Elatlının vətənpərvərlik mövzusunda yazılmış “Qisas gecəsi” əsəri haqqındadır. Bu yazıçının vətənpərvərlik mövzusunda qələmə aldığı üçüncü romanıdır. Bundan əvvəl vətənpərvərlik mövzusunda E.Elatlı “Qan ləkəsi”, “Cəhənnəmdən gələn səs” romanlarını yazmışdır. Bu romanlar xalqımızın çox böyük sevgisini qazanmışdır. Hər hansı bir şəxsiyyətin qəlbərdə uzun illər yaşamasında və sevilməsində bədii əsərlərin nə qədər böyük rola malik olduğunu hamımız yaxşı bılırik. “Qisas gecəsi” romanı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qısa həyatından və şərəfli döyüş yolundan bəhs edir. Roman gənclərimizin hərbi vətənpərvrlik tərbiyəsində öz müsbət rolunu oynamağa qadirdir. Kitabın ilk səhifəsində Azərbaycan Respublikasının Prezidentinin Mübariz İbrahimov haqqında dediyi sözlər verilmişdir. “Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən sevgisi, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclərimiz üçün örnəkdir, nümunədir”.

Mübariz İbrahimov yüz faizli ölümə getmişdi. Bacardığı qədər düşmən əsgəri öldürüb, sonra həlak olmuşdur. Düşmənə xeyli itki verib özü də şəhid olan Mübarizə həsr olunmuş bu kitabı oxumaqla şəhidlərimizin ruhu qarşısında borcumuzun bir hissəsini yerinə yetirmiş olarıq. Yazıçı E.Elatlı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun iyirmi iki illik ömür yolundan bəhs

edən bu romanında onun daxili aləmini, həyacanlarını, mənəvi dünyasında baş verən oyanışı, onu daim narahat edən, intiqama səsləyən səbəbləri bədii detallarla açıb göstərməyə çalışmışdır.

Kitabxanaçının çıxışından sonra söz konfrans iştirakçılarına verilir. Sonda iştirakçılar gələcəyimiz olan uşaqlar arasında vətənpərvərliyin təbliği mövzusunda müzakirələr aparıb, öz təklif və rəylərini bildirirlər.

Kitabxanada həmçinin Nüşabə Məmmədlinin vətənpərvərlik mövzusunda yazılmış "Zəngulə" əsəri haqqında da müzakirə aparmaq olar. Qarabağ müharibəsini, Qarabağ dəhşətlərini olduğu kimi təsvir edən "Zəngulə" əsəri Azərbaycan xalqının fəryadıdır. Əsər Qarabağ müharibəsində əsir düşən ata-analarımızın, baba-nənələrimizin, bacı-qardaşlarımızın, qız-gəlinlərimizin, balalarımızın acınacaqlı taleyindən, işgəncəli həyatından bəhs edir. Əsərin baş qəhrəmanı – 9 yaşlı Rəhimənin 3 il əsirlikdə gördüyü dəhşətlər kitabı oxuyan hər bir azərbaycanlını sarsıdır. Erməni vəhşiliklərinin balaca şahidi olan bu qızcığazın naləsini, fəryadını eşitməmək, duymamaq mümkün deyildir. Rəhimənin, eləcə də əsirlərimizin fəryadı bizdə düşmənə olan nifrəti, qisas hissini daha da alovlandırır. Anasını və Vətənini sevən hər bir azərbaycanlı bu hadisələrə laqeyd yanaşmamalıdır. Nüşabə Məmmədlinin "Zəngulə" əsəri xalqımızı kişiliyə, qeyrətə çağırır. Əziz oxucular, əsl vətənpərvər oxucu bu əsəri oxumalı və yoldaşları arasında təbliğ etməlidir. Mən inanıram ki, əsəri oxuyan hər bir kəsdə intiqam hissləri daha da güclənəcək, torpaqlarımızın geri qaytarılması uğrunda mübarizələrə qoşulacaq və vətənə layiqli övlad olacaqlar".

Kitabxanaçının çıxışından sonra qonaqlar çıxış etməlidir. Çıxışlardan sonra oxucular əsər haqqında öz fikirlərini bildirməlidirlər.

Vətən oğullarını haraya çağıran, onlarda ruh yüksəkliyi oyadan, torpaqlarımızı düşmən tapdağı altından tezliklə azad olunması üçün mübarizəyə səsləyən, yeniyetmə və gənclərdə vətənə daha dərindən məhəbbət hissini oyadan tədbirlərdən biri olan ədəbi-bədii gecənin keçirilməsi uşaq kitabxanaları üçün daha zəruridir. Ədəbi-bədii gecəni "Vətən mənə oğul desə nə dərdim", "Vətəndaşlıq borcu", "Azərbaycan mənim tacım-taxtım oy!" və s... başlıqlar altında keçirmək olar. **"Vətən mənə oğul desə nə dərdim"** adlı bədii gecənin ssenarisini təqdim edirik:

( Səhnə cəbhə bölgəsini xatırladan şəkillərlə bəzədilir. Milli Qəhrəmanların portretləri və Heydər Əliyevin vətənpərvərliklə bağlı söylədiyi sitat – **"Hər bir gənc müstəqil Azərbaycanın gələcəyini təmin etmək üçün vətənini sevməli, xalqımızı sevməli, dilimizi və milli ənənələrimizi sevməlidir"** əks olunur. Gecə Müslüm Maqomayevin bəstəsi olan "Azərbaycan" mahnısının sədaları altında açılır. Səhnəyə iki əsgər geyimli aparıcı daxil olur ).

I aparıcı: Vətən! Bu söz insanlarda daha dərin və əziz hislər oyadır. Vətənə məhəbbət öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq lazımdır. Vətənpərvərlik əsrlərlə insanların qan yaddaşına həkk olunmuş hisslərdəndir.

II aparıcı: Bu dünyaya göz açanda ana görmüşük. Onun ılıq nəfəsinə, təbəssümlü və işıqlı baxışlarına, məhəbbətlə süzülən şirin kəlmələrinə, bütün varlığımızı bürüyən sevgisinə

qızınmışıq, böyümüşük. Ilk kəlməmiz də "Ana" olub. Və illər ötdükcə, yaşa dolduqca, ağlımız kəsdikcə bilmişik ki, bizim üçün də, ata-anamız üçün də müqəddəs bir varlıq var. Ona "Vətən" deyirlər. "Vətən"-"Ana" qoşa çəkilən addır.

I aparıcı: Bizim Vətənimiz Azərbaycandır. Onun başı ağ çalmalı uca dağlar, laləli çəmənlər, çiçəkli düzlər, meyvəli bağlar, pambıq, taxıl sərvətli torpaqlardır. Vətən uzaq və qəhrəman keçmişimiz, bu günümüz, gələcəyimizdir. Uzaq və qəhrəman keçmişimiz sal qayalar üzərindəki silinməz izlərdir. Tomris mərdliyidir, Cavanşir yenilməzliyidir, Nizami poeziyasıdır, Dədə Qorqud hikmətidir, Nəsirəddin Tusi və Yusif Məmmədəliyev elmidir, Füzuli məhəbbətidir, Koroğlu cəngidir, Xətai qılıncıdır, Babək harayıdır, Nəbi iradəsidir, Heydər Əliyev qətiyyətidir.

( Sonra səhnədə Məhəmməd Hüseyn Şəhriyarın "Azərbaycan" şeirinin sözlərinə bəstələnmiş mahnı ifa olunur).

I aparıcı: Lakin, günlərin bir günü qara və müdhiş bir təhlükə anamız Azərbaycanın başı üstündə dolaşdı. Bu təhlükə Azərbaycanın ağ çalmalı dağlarının sakitliyini pozub, laləli-çiçəkli çəmənlərimizin ətrinə barıt,

mərmi qoxusu qarışdırdı, yaylaqlarımızı çoban tütəyinin səsinə həsrət qoydu. Azərbaycanın 20 faizi işğal olundu, milyondan çox vətəndaşı öz vətənində qaçqına çevrildi. Biz hamılıqla vətəni qorumalı, işğal olunmuş rayonları düşmənin əlindən təmizləməliyik. Hər cür nemətlə zəngin olan vətənin bir hissəsi yanmış, qanla suvarılmış torpaqlarımızı düşmən tapdağından xilas etmək biz övladların müqəddəs borcudur. Anaların, bacıların göz yaşlarını qurutmaq, qəddi əyilmiş qoca ataların qəddini düzəltmək, Azərbaycan ordusunun üzərinə ağır və şərəfli vəzifə qoyur.

II aparıcı: Bu gün nizami ordumuz var və ordumuz böyük inkişaf yolundadır. Mərhələ-mərhələ təkmilləşir, təcrübə qazanır, peşəkarlığını artırır, döyüş qabiliyyətini yüksəldir. O cümlədən ordunun təminatı artdıqca, xidmətkeçmə də asanlaşır. Bu həm əsgər və zabitlərimizdə, həm də xalq arasında vətənpərvərlik hissinin artmasına təkan verir. Vətənpərvərlik hissləri ülvi dəyərlərdir. Və bu hər bir xalqın, dövlətin inkişafında mühüm rol oynayır. Azərbaycan Prezidenti cənab İlham Əliyev də çıxışlarında əsgərlərimizin, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasını vacib sayır: “Azərbaycan

heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını azad edəcəkdir.

Bunu etmək üçün cəmiyyətdə səfərbərlik olmalıdır. Gənclərimiz, əsgərlərimiz vətənpərvərlik ruhunda tərbiyə edilməlidir.”

I aparıcı: Abbas Səhhətin “Vətən” şeiri bütün dövr və zamanlar üçün ən sanballı örnəkdir. Şeirin son misraları insanın bəşəri hisslərini ifadə etməklə yanaşı, bəlkə də Vətəni sevməyin ən gözəl tərifidir.

(Oxucu Abbas Səhhətin “Vətən” şeirini söyləyir).

II aparıcı: Bu gün vətənimizin keşiyində duran bir çox gənclərimiz var. Hal-hazırda onların sayəsində torpaq üzərində rahat gəzirik. Bunun üçün onlara borcluyuq. Onlar ən müqəddəs borclarını yerinə yetirirlər. Vətənə olan borclarını! Məhz bu gənclər haqda Heydər Əliyev demişdir: “Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Onların əksəriyyəti gənclərdir. Onlar vətəni qoruyurlar, düşmənlə üzbəüz mövqedə dayanırlar, Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər. Lazım gələn anda

məhz onlar doğma torpaqlarının azad olunması üçün ilk addımı atacaqlar”

I aparıcı: Şəhidlər xiyabanı respublikamızın bütün məktəbliləri üçün əsl birlik və həmrəylik, mərdlik və cəsarət məbədinə çevrilib. Ulu öndərimizin dediyi kimi, "Biz hərbi vətənpərvərliyi hər şeydən öncə Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş, bugünkü azadlıq və müstəqilliyimizin polad təməlçiləri olmuş, öz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə şanlı səhifələr yazmış igidlərimizdən öyrənməli, onlardan ibrət götürməliyik".

II aparıcı: Şəhidlər tarixin sönməyən çıraqlarıdır. Onlar daim azadlıq uğrunda çırpınan yolumuza işıq saçırlar. Vətən yolunda, millət yolunda şəhid olanlar ölməzdir. Vətən Təbriz kimi, Çingiz kimi, Əlif kimi, Salatın kimi, Mübariz kimi... qəhrəmanlarını heç vaxt unutmayacaq.

I aparıcı: Torpaqlarımızsa şəhid olmamalıdır! Babalarımız bu torpağı quduz düşmənlərin əlindən ona görə qorumayıblar ki, onu əsrin ermənilik bəlasına qurban verək.

II aparıcı: Vətən şəhid olsa nə cavab verərik meydanda anasının qucağında "öldü var, döndü yoxdu" qışqıran körpəyə?
Yox, türk oğlu, yox! Sən vətən torpağını şəhid olmağa qoymayacaqsan! Gəl and içək hamımız, kimin damarında türk qanı axırsa, and içsin ki, dünyanı dünyalığından çıxarmaq istəyənlərin əli torpağımızdan kəsiləcək. And içək ki, şəhidlərimizin torpağımızın göz yaşına dönən hər damla qanına əvəz çıxılacaq. Və bir də and içək ki, bu and içdiyimiz andların heç birinə bənzəməyəcək.
And içək...

(İki oxucu Ələmdar Quluzadənin "Hərbi and" şeirini söyləyir).

I oxucu:

Qəhrəman Mehdilərə,
Həzilərə həsədim,
Cəbhələrdən dönməyən
Atalara həsrətim –
Hərbi andımdır mənim.

Ünvansz ölənləri
Axı, necə unudum?
Bir naməlum əsgərin
Qəbri üstdə sükutum –
Hərbi andımdır mənim

II oxucu:

İnsanın od-alovlu
Tarixlərə heyrəti,

Anaların qırğına,
Sülhün hərbə nifrəti –
Hərbi andımdır mənim.

Mənə səadət verən
Vətənə sədaqətim,
Məni vətənə verən
Anama məhəbbətim –
Hərbi andımdır mənim.

(S.Nuruqızının "Qisas" povestindən qısa səhnəcik göstərilir. Sonra iki oxucu Məmməd Arazın "Bizi Vətən çağırır!" şeirini söyləyir.).

I aparıcı: Vətənpərvərlik Vətənə, doğma torpağa, xalqa, onun dilinə, adət-ənənələrinə, mədəniyyətinə məhəbbət deməkdir. Əsl vətəndaş isə Vətənin içində gəzən yox, Vətənin özünü öz içində gəzdirəndir.

II aparıcı: Əsl Vətəndaş Vətəni ana qədər sevən, əzizləyən, qoruyandır. Gəlin, biz də əsl vətəndaş olmaq üçün Vətənimizi göz-bəbəyimiz kimi qoruyaq. Çünki, Vətən hər şeydən ucadır! Bunu hər bir kəs dərk etməlidir. Onda yenilməz olarıq!

**II aparıcı:** Azərbaycanı sevin, sevin Azərbaycanı,
Bu gün odlu sevgiyə onun ehtiyacı var...
Sevin, odum, ocağım, evim Azərbaycanı,
İndiki dərdlərinə eşqimiz əlac olar...
Yaraları göynəyir, yaraları sızlayır,
Bu millətin qeyrətli oğulları, qızları,
Sevgimiz xilas edər bu gün Azərbaycanı,
Azərbaycanı sevin, sevin Azərbaycanı...

Adını uca tutun hər arzudan, diləkdən,
Doymayın, usanmayın ona ana deməkdən...
O bizim hamımızın həyəcanı, harayı,
Bir də axı kim yanar ona bizdən savayı?...
O bizim ruhumuzda, o bizim qanımızda,
Yalnız biz keçməliyik uğrunda canımızdan.
Can istəsə can verin, sevin Azərbaycanı,
Qan istəsə qan verin, sevin Azərbaycanı...

*Sözləri Ənvər Əlibəylinin, musiqisi Rauf Hacıyevin "Azərbaycanım" mahnısını oxucular ifa edirlər. "Tədbir C.Quliyevin "Əsgər marşı"nın səslənməsi ilə bitir.*

# VƏTƏNPƏRVƏRLİK MÖVZUSU BƏDİİ ƏDƏBİYYATDA

***KİTABLAR***

**Abbas A**. Dolu : roman. - Bakı : Təhsil, 2008. - 256 s.
**Abdulla M.** Əsir qadın... : roman. –B. : Çinar-Çap, 2006. – 216 s.
**Abdulla M**. (Mahirə). Əvvəl. Axır : Roman. - Bakı : QAPP-POLİQRAF Korporasiyası, 2004. - 268 s.
**Amanova S.** Su satan Abbas, Bülbül və Qızılgül haqqında nağıl. - Bakı : Oskar, 2002. - 16 s.
**Anama deməyin** / tərt.ed. : E. İsgəndərzadə. - Bakı : Vektor, 2003. - 128 s.
**Anarqızı G.** Oğlun Qarabağ : Hekayə / G. Anarqızı. - Bakı : Nurlan, 2004. - 66 s.
**Arifqızı G**. Əsirlikdə qalan kəndim. - Bakı : Avropa, 2008. - 144, [24] s.
**Azayev Ə.** Qanlı gündəlik : povest və hekayələr. – B.: Azərnəşr, 2002. – 240 s.
**Cəbrayılova R.** Ölməzliyə abidə. – B.: Ziya, 2010. – 444 s.
**Cəfərov R.** İkiqat mühasirə. – B.: Çıraq, 2008. – 222 s.
**Cəfərov R.** Ləğv edilmiş tapşırıq. – B.: Çıraq, 2005. – 368 s.
**Çəmənli M.** Fred Asif : sənədli roman. – B.: Təhsil, 2010. – 224 s.
**Çəmənli M.** Mübariz : povest. – B.: Təhsil, 2010. – 96 s.
**Elçin.** Qarabağ şikəstəsi : Hekayə. - Bakı : Mütərcim, 2009. - 48 s. - ("525 kitab" seriyası).
**Elatlı E.** Cəhənnəmdən gələn səs : roman. – Bakı : MBM, 2009, - 368 s.
**Elatlı E.** Qisas gecəsi : roman. – Bakı : İdeal-Print, 2011. – 176 s.

**Eyyubov E.** Qırx beş gün cəhənnəmdə : roman. - Bakı : Şirvannəşr, 2010. - 424 s.
**Eyvazlı Ə.** Bir batalyonun tarixi : sənədli povest. – B.: Nurlar, 2011. – 311 s.
**Əhməd Ə.** Dünya əlimdən sürüşür : şeirlər və poemalar. - Bakı : Qarabağ, 2007. - 527 s.
**Əhmədov Y.** Torpağa tökülən qan : roman. – B.: Azərnəşr, 2004. – 456 s.
**Əlioğlu M**. [Məhərrəmov] Gerçəkləşən xəyallar (Fərari – 2). – B.: Gənclik, 2011. – 250 s.
**Əliyev O.** Əbədiyyətə qovuşan Koroğlu. – B.: Ərgünəş, 2008. – 238 s.
**Əroğul Ə.** Cəbrayılım-müqəddəs torpaq : Cəbrayıl polisinin tarixindən səhifələr. - Bakı : Ekologiya, 2006. - 412 s.
**Əsgərova R.** Gültəkin: İki zirvə, iki and yeri : ədəbi-bədii toplu. – B.: Qanun, 2006. – 352 s.
**Güney F.** Qara qan : tarixi roman. I kitab. – Bakı : Qapp-Poliqraf, 2003. – 462 s.
**Güney F.** Qara qan : tarixi roman. II kitab. – Bakı :Apostrof, 2009. – 456 s.
**Hacızadə A.** Bir cüt yarpaq : sənədli povest. – Hərbi nəşriyyat, 2005. – 240 s.
**Həsənqızı F.** Döyüşçü fəryadı. – B.: Vətən. 2010. – 160 s.
**Xəlilov V.** Vətən sənə oğul dedi : Azərbaycanın Milli Qəhrəmanı Eldar Xəlil oğlu Xəlilov haqqında. – B.: Nərgiz, 2009. – 112 s.
**Xəzər E.** Mübariz : poema. – B.: Nərgiz, 2011. – 39 s.
**XınalıZ.** Qarabağı unutma : Hərbi vətənpərvərlik mahnıları və marşları. - Bakı : Təhsil, 2005. - 48 s.
**Kərimov Y.** Sarı sim... : Povestlər, ssenarilər. Qarabağ şikəstəsi dəftərindən. - Bakı : Vətən, 2004. - 334 s
**Kərimov Y.** Qarabağ şikəstəsi. - Bakı : Azərnəşr, 2003. - 224 s.

**Kərimli A.** Vətən igid oğullarımızı yaşadacaq. – B.: Yeni poliqrafist MMC, 2010.
**Kovlarlı H.** Qaratəpə şəhidləri : mənzum roman. - Bakı : Qanun, 2010. - 671 s.
**Qazi V.** Ruhlar şəhəri. – B.: Təhsil, 2010. – 124 s.
**Qızıltaclı T.** Şuşadan məktub. – B.:Qanun, 2005. – 51 s.
**Qonaq Ə.** Vətən səndən keçmək olmaz. – B.: Hüquq ədəbiyyatı nəşriyyatı, 2010. – 784 s.
**Quluzadə Ə.** Qadan mənə, Qarabağ : şeirlər, poemalar, mənzum pyes. - Bakı : Ozan, 2006. - 456 s.
**Laçınsız B**. Biganəlik və unutqanlığımızın acı həqiqətləri. II kitab. - Bakı : Nurlan, 2010. - 304 s.
**Ləman F.** Qılınckəndi dastanı : tarixi sənədli əsər. - B.: MBM, 2011. – 111 s.
**Ləman F., Əhmədli S.** İlqarsız dünya. – B.: MBM, 2012. – 87 s.
**Ləman F. Təəssüb** : Mübariz İbrahimova həsr olunur : poema. – B.: MBM, 2011. – 43 s.
**Mehdi Q.** Nizami Aydın şəhidliyi. – B.: Vektor Nəşrlər Evi, 2008. – 114 s.
**Murad Ə.** Ayrılıq ölüm deyil : poema. – B.: Təfəkkür. 2004. – 40 s.
**Məhərrəmli Z.** Qırx qız dastanı : Sənədli hekayələr və portret oçerklər. - Bakı : Nurlan, 2003. - 306 s.
**Məhərrəmov M.** Fərari : ssenari roman. – B.: Təknur, 2008. – 210 s.
**Mirzə N.** Qatil : povestlər, hekayələr. – B.: Araz, 2006. – 308 s.
**Muxtarov X.** Müharibə sənəti : roman. - Bakı : Nurlan, 2009. - 320 s.
**Muradxanlı E.** Siz mühasirədəsiniz, leytenant : roman və hekayə . – B.: Avrasiya Press, 2009. – 152 s.
**Müslümqızı S.** Xocalı uşaqları - Qan içində qar çiçəyi. - Bakı : Yazıçı, 2013. - 120 s. - Azərbaycan, rus və ingilis

dillərində.
**Nuruqızı S.** Qisas : povest. – B.: Vektor nəşrlər evi, 2005. – 133.
**Oruc B.** Küskün ruhlar. – B.: Təhsil EİM, 2006. – 140 s.
**Özgün S.A.** Tankçı Valeh : yaddaş publisistikası. – B.: Yazıçı, 2010. – 176 s.
**Paşa T.** Beş gürzə. – B.: MBM, 2012. – 255 s.
**Pənah G.** Qarabağ dərdi : poeziya. - Bakı : Çinar-çap, 2005. - 400 s.
**Rəhimov A. Romanlar. –** B.: Azərnəşr, 2004. – 560 s.
**Rüstəmov Ə. (Hacı).** Qalx ayağa, Vətən oğlu! – B.: Vektor Nəşrlər Evi, 2005. – 151 s.
**Sadiq Ş.** Ümidlərin izi ilə : Qarabağ mövzusunda ilk bestseller: roman. - Bakı : XAN , 2015. - 408 s. : foto - Xocalı faciəsi qurbanlarının əziz xatirəsinə ithaf olunur.
**Səlimov K.** Mücahid Şahin. – B.: Araz, 2007. – 31 s.
**Sonam B.** Qanlı dərə. - Bakı : [s. n.], 2004. - 44 s.
**Sonam B.** Qətl : Azərbaycanlıların soyqırımına-Qarabağ müharibəsinə həsr olunmuş sənədli -bədii materiallar silsiləsindən. - Bakı : Qanun, 2004. - 44 s.
**Sonam B.** Sahibsizlik : Azərbaycanlıalrın soyqırımına-Qarabağ müharibəsinə həsr olunmuş sənədli -bədii materiallar . - Bakı : 2004. - 52 s.
**Soyqırım** : Erməni terrorizmi. – B.: MBM, 2009. – 184 s.
**Şamiloğlu R.** Bəlalı dünya : roman . - Bakı : Şur, 2009. - 235 s.
**Şirinov T.** Qarabağda qan izləri : dram əsərləri. – B.: Nərgiz, 2007. – 252 s.
**Şükürlü Q. M.** Atəş!!! - Bakı : Maarif, 2008. - 232 s
**Tərtərli F.** Qartal harayı. - Bakı : Təknur, 2007. - 112 s.
**Varis.** Bir ovuc torpaq : Roman. - Bakı : Vektor, 2009. - 320 s.
**Vəkil Ə.** Əbədi qəhrəmanlıq : poema. – B.: Nurlan, 2005. – 88 s.

**Zeynalov E.** Qarabağ hekayələri. - Bakı : Şirvannəşr, 2009. - 176 s.

***KİTABLARDA***

**Abdulla A.** Biri kim? ; Harda ; Bayburta xitab : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 95-97.
**Abdulla A.** Bu vətən ; Qala divarlarının nəğməsi : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 271-273.
**Ağabəyli Ə.** Azərbaycan ; Vətənimi sevmişəm ; Vətənimdir Azərbaycan : şeirlər // Məhəbbətlə yaşayacam. - B. : Şirvannəşr, 2005. - S. 4-6.
**Axundova S.** Vətən : şeir // Azərbaycan qadın şairləri antologiyası. - B. : AVRASİYA PRESS, 2005. - S. 125.
**Arabaçı A.** Sinoptik məlumatı ; Yaddan çıxıb Qarabağ ; Yanmış kənd ; Sənə and içirəm, Vətən torpağı : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 230-233.
**Araz M.** Ana torpaq : şeir // Seçilmiş əsərlər. 4 cilddə. I c. - B. : Ozan, 2004. - S. 55-57. ; Seçilmiş əsərləri. - B. : Çaşıoğlu, 2004. S.8 -10.
**Araz M.** Arazın nəğməsi : şeir // Seçilmiş əsərlər. 4 cilddə. I c. - B. : Ozan, 2004. - S. 157-160.
**Araz M.** Ayağa dur, Azərbaycan : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - B. : Çaşıoğlu, 2014. - S. 274-276.
**Araz M.** Bizi Vətən çağırır! : şeir // Seçilmiş əsərləri. 2 cilddə. II c. - 2004. - S. 128-129.
**Arif H.** Yatır ; Göyçəlilər, dağılmayın Göyçədən : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 221-225.
**Aslan M.** Vətən və biz ; Haydı, qoç Koroğlu! ; Sahibin hanı ; O sənin haqqın deyil : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 136-140.

**Ataxanlı B.** Vətən nəğməsi ; Sən bu günahları əfv elə, allah! ; Yurda yaraq : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 264-265.

**Atalar belə demiş** : Vətən haqqında atalar sözləri // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 28.

**Azəroğlu B.** Sənsən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 219-220.

**Balayar S.** Ömrün hünər nəğməsi : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 501-526.

**Bayatlı V. (Odər).** Vətən səslə oğlunu : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 365-368.

**Bayram T.** Azərbaycan deyəndə : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 13-14. ; Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 249-251.

**Bayram T.** Azərbaycan haqqında nəğmə : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 164.

**Bayram T.** Azərbaycanım : şeir// Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 171-172.

**Bayram T.** Azərbaycanım gəlir : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 195.

**Bayram T.** Qarabağ nəğməsi : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 161-162.

**Bayram T.** Qəhrəman Azərbaycanım : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 202.

**Bayram T.** Odlar yurdu ; Vətən sevgisi : şeirlər // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 158.

**Behrudi R.** Vətən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 397-398.

**Bəhmənli V.** Didərgin ; Yazıq vətən ; Dərdli adam, dərdli qələm... Horadiz : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 214-219.

**Bəhmənli V.** Vətən ; Bayraqlar ; Qarabağın qəzəlli xalçası ; Dirilmə : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf,

2011. - S. 355-362.
**Bünyadzadə Ü.** Vətən üçün doğulmuşuq ; Mən qorxmuram uzaq yola çıxmaqdan : şeirlər // Vətənə nəğmə çələngi. - 2011. - S. 441-442.
**Cəmil A.** Kəlbəcər ; Qarlı qış gecəsi ; Anam həsrət qalıb ana yurduna ; Özünü qayadan atan qızlara : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 248-251.
**Dalğın N.** Biri ana, biri Vətən : nəğmə // Ürəklərdə bəslənən sevdaya şükür. - B. : MBM, 2008. - S. 38.
**Dəmirçi Z.** Azərbaycanam : şeir // Qayalı. - B. : UniPrint, 2008. - S. 34.
**Dilbazi M.** Oğul qeyrəti ; Vətən oğul istəyir : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 174-176.
**Dilsuz.** Bura vətəndi : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 381-382.
**Etimad M.** Azərbaycan marşı // Azərbaycan Respublikasının dövlət rəmzləri. - B. : Çaşıoğlu, 2010. - S. 256-257.
**Eyvazlı K.** Laçın həsrətimi, Şuşa dərdimi : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 266-267.
**Əfəndiyeva R.** Xarıbülbül ; Muğamat üstə ; Şuşam : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 222-224.
**Əhməd Ə.** Azərbaycan : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 277-279.
**Əhmədgil A.** Şirin zəhər : şeir : Şuşa özünümüdafiə batalyonunun keçmiş döyüşçüsü Füzuli Cəfərovun dediklərindən // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 252-253.
**Əhmədli N.** Vətənə oğul lazımdı ; Son döyüş : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 428-429.
**Əkbərzadə Ş.** Anam Azərbaycana ; Və-tən ; Qarabağdan

əsən yellər ; Ölüb dirilək : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 377-380.

**Əkbərzadə Ş.** Ölü torpaqlara məzar qazılmır ; Girov məscidlər ; Güllələnmiş abidələr : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 172-178.

**Ələkbərli M.** Vətən dərsi : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 434-437.

**Əlioğlu Ç.** Qarabağım - qara bağrım... ; Deyirsən, mənimdir... ; Bilmək olmur ; Ad mənim, dad özgənin ; And ; Pay olmaz! ; Çətin düzələ : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 163-171.

**Ərəstunoğlu R.** Ağlatmayın ağacları : şeir // Vətən sevgisi. - B. : Araz, 2006. - S. 57.

**Ərəstunoğlu R.** Azərbaycanın himni : şeir // Vətən sevgisi. - 2006. - S. 16.

**Ərəstunoğlu R.** Vətən bizi çağırır : şeir // Vətən sevgisi. - B. : Araz, 2006. - S. 20.

**Ərəstunoğlu R.** Vətən sevgisi ; Vətən ; Elin torpağını qoruyur onlar... ; Vətəni sevərək şəhid olanlar ; Ata yurdum, mənim doğma Vətənim : şeirlər // Vətən sevgisi. - B. : Araz, 2006. - S. 9-13.

**Fərhadoğlu K.** Azərbaycan : şeir // Dağlarda nisgilli bir ağım qalıb. - B. : E.L., 2008. - S. 8-9.

**Gəncəli M. (Ümid).** Azərbaycan. Vətən şərqisi : şeir // Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. - B. : Elm, 2003. - S. 207-208.

**Göyyurd G.** Göyər, Göyyurdum, göyər! ; Səninkidir bu çadır ; Bu qan yerdə qaldı axı... : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 268-270.

**Hacıyeva F.** Azadlıq meydanı ; Qırmızı qərənfil ; Vətən ; Qaçqınam ; A çadır şəhərciyim : şeirlər // Azərbaycan

harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 245-247.
**Hacıyeva F.** Vətən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 468.
**Hacızadə N.** Qalx, qalx, ulu torpaq! ; Ey Vətən! ; Ana yurdum Azərbaycan ; Qürbətlərdə qalan dağlar ; Bəxt günəşin doğacaq : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 141-145.
**Həmid X.** Azərbaycan : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 443-444.
**Həsənzadə N.** Beynəlxalq məhkəməyə, bütün millətlərə : şeir // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 45-46.
**Hüseyn Y.** Azərbaycan yaşayacaqdır : şeir // Bir parça ömür yolu. - B. : Araz, 2004. - S. 76.
**Hüseyn Y.** Bura sərhəddir, sərhəd! : şeir // Bir parça ömür yolu. - B. : Araz, 2004. - S. 81.
**Hüseyn Y.** Göz bəbəyim Şuşadı : şeir // Bir parça ömür yolu. - B. : Araz, 2004. - S. 86.
**Hüseyn Y.** Hardan başlanır Vətən?! : şeir // Bir parça ömür yolu. - 2004. - S. 80.
**Hüseyn Y.** Vətən : şeir // Bir parça ömür yolu. - B. : Araz, 2004. - S. 75.
**Xəlilzadə F.** Vətən : şeir // Yuxular. - B. : Araz, 2004. - S. 42.
**Xəndan R. (Zəka).** Azərbaycanım ; Haraya getsək, oğul, ünvanımızdır bu vətən... : şeirlər // Azərbaycan cahandır. - B. : Mütərcim, 2009. - S. 58-59.
**Xəndan R. (Zəka).** Can Azərbaycanımız ; Azərbaycan cahandır : şeirlər // Azərbaycan cahandır. - B. : Mütərcim, 2009. - S. 8.
**Xəndan R. (Zəka).** Ana yurdum : şeir // Azərbaycan cahandır. - B. : Mütərcim, 2009. - S. 4.
**Xəzri N.** Ana. Bayraq. Vətən // Seçilmiş əsərləri. 2 cilddə. I

c. - B. : Lider, 2004. - S. 40-41.
**Xəzri N.** Çadırlar : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.I. - B. : Lider, 2004. - S. 94-95.
**Xəzri N.** Çəkin Qarabağdan qara əlləri // Seçilmiş əsərləri. 2 cilddə. I c. - B. : Lider, 2004. - S. 89.
**Xəzri N.** Xocalıda ərik ağacı : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.I. - B. : Lider, 2004. - S. 98-100.
**Xəzri N.** İstiqlal marşı : şeir : 1991 // Seçilmiş əsərləri. 2 cilddə. I c. - B. : Lider, 2004. - S. 96.
**Xəzri N.** Qeyrət : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.I. - B. : Lider, 2004. - S. 90-91.
**Xəzri N.** Şuşa gəlir yuxuma : şeir // Seçilmiş əsərləri. 2 cilddə. I c. - B. : Lider, 2004. - S. 111-112.
**Xınalı Z.** Azərbaycan : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 22.
**Xınalı Z.** Ey Vətən : nəğmə // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 21.
**Xınalı Z.** Əsgər qardaşlar : mahnı / Z. M. Xınalı ; bəst. N. Mirməmmədli // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 46.
**Xınalı Z.** Gəlsin : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 24.
**Xınalı Z.** Xocalı : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 39.
**Xınalı Z.** Mənim əsgər qardaşım : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 23.
**Xınalı Z.** Şəhidlər : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 36.
**Xınalı Z.** Türk qanıdır qanımız : mahnı / Z. M. Xınalı ; bəst. H. Abbasquliyev // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 45.
**Xınalı Z.** Vətən sevgisi : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 37.
**Xınalı Z.** Vətən torpağı : şeir // Vətən sevgisi. - B. :

Adiloğlu, 2007. - S. 13.
**Xınalı Z.** Ana torpaq : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 19.
**Xınalı Z.** Azərbaycan əsgəri : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 25.
**Xınalı Z.** Döyüş bayrağı : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 11.
**Xınalı Z.** Döyüşçü nərəsi : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 8.
**Xınalı Z.** Elimin igidlərinə : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 6.
**Xınalı Z.** Əsgər addımları : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 9.
**Xınalı Z.** Əsgər papağı : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 10.
**Xınalı Z.** Halal olsun : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 7.
**Xınalı Z.** Xeyir-dua : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 28.
**Xınalı Z.** Qarabağ : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 29-30.
**Xınalı Z.** Qələbə marşı : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 15.
**Xınalı Z.** Sülh nəğmələri : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 33.
**Xınalı Z.** Şəhid şərbətini içdi şəhidlər : şeir// Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 12.
**Xınalı Z.** Şəhid şərbətini içənlər gərək : mahnı / Z. M. Xınalı ; bəst. M. Əsgərov // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 43.
**Xınalı Z.** Şuşa : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 35.
**Xınalı Z.** Təki Vətən yaşasın : pyes // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 118-140.

**Xınalı Z.** Vətən nəğməsi : şeir // Vətən sevgisi. - B. : Adiloğlu, 2007. - S. 26.
**Xuraman.** Yuxuma gəlmişdi dağlar bu axşam : şeir // Könlüm Qarabağdadı. - B. : Nərgiz, 2006. - S. 92.
**İldırım A.** Əsir Azərbaycanım : şeir // Boğulmayan səs. - B. : Avrasiya Press, 2007. - S. 308. ; Seçilmiş əsərləri. - B. : Öndər, 2004. - S. 115. ; Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 114.
**İsmayıl M.** Qan : şeir // Yoxun varlığı 1992 - 2007. - B., 2007. - S. 69.
**İsmayıl M.** Laçınım : şeir // Yoxun varlığı 1992 - 2007. - B., 2007. - S. 66.
**İsmayıl M.** Şairləri susmayan bir Vətən basılmaz : şeir // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 106-107. ; Yoxun varlığı 1992 - 2007. - B., 2007. - S. 61-62.
**İsmayıl M.** Uzun bir cümlədir Vətən torpağı : şeir // Yoxun varlığı 1992 - 2007. - B., 2007. - S. 60.
**İsmayıl M.** Vətən : şeir // Yoxun varlığı 1992 - 2007. - 2007. - S. 63.
**İsmayıl M.** Vətən ; İlk beşik, ilk yuva : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 274-276.
**İsmayılzadə İ.** Vətən nəğməsi ; Keçim qarayazı düzənliyindən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S.
**Kərim Ə.** Azərbaycan : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2004. - S. 36-38.
**Kəsəmənli N.** Vətən : şeir // Qapamayın gözlərimi. - B. : Maarif, 2006. - S. 3-4.
**Kəsəmənli N.** Vətən ; Torpaq haqqında nəğmə : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 373-376.
**Kəsəmənli N.** Vətən alov odunu sənin... : şeir // Qapamayın gözlərimi. - B. : Maarif, 2006. - S. 7-8.
**Kəsəmənli N.** Yaddan çıxmaz Qarabağ : poema //

Qapamayın gözlərimi. - B. : Maarif, 2006. - S. 229-255.
**Kürçaylı Ə.** Torpağım : şeir // Seçilmiç əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 242-243.
**Kürçaylı Ə.** Vətən : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 118.
**Kürçaylı Ə.** Vətən ; Vətən ətri : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 238-241.
**Qabil.** Çalsın Azərbaycan haray zəngini ; Mərsiyə ; Çadırlara alışmayın ; Ümid sənədir ancaq : şeirər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 23-32.
**Qabil.** Həm adi, həm ali : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 60-62.
**Qaracaoğlu B.** Fədailər marşı : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 310.
**Qaramuradlı M.** Alınmaz qaladı Şuşa : şeir // Qədərində götür. - B. : Vektor Nəşlər Evi, 2007. - S. 7.
**Qoca F.** Addım-addım ; Anam mənim ; Bayraq tutan oğullara : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 190-197.
**Quluzadə Ə.** Pənah evi : iki hissəli on iki şəkilli mənzum pyes // Qadan mənə, Qarabağ. - B. : Ozan, 2006. - S. 360-450.
**Quluzadə Ə.** Şəhid şəhər : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2008. - S. 446-500.
**Qusarçaylı R.** Bu millət ; Vətəni sevməyə qoymurlar məni : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 236-238.
**Ləman F.** Bu yurd Azərbaycandır : şeir // Azərbaycan qadın şairləri antologiyası. - B. : AVRASİYA PRESS, 2005. - S. 245-247.
**Mehdi F.** Mənim Ağdamımı kim satdı, allah! ; Mənim qaçqın anam Bakıda öldü ; Kefin necədir? ; İrəli, irəli, ancaq irəli! : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə

Kitabı Redaksiyası, 2002. - S. 65-75.
**Mehdiyeva F.** Laçınsız Laçını oynama, qardaş! : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 459-460.
**Məhərrəmli Q.** Vətən, yaralı Vətən... ; Qalxağın ər savaşına... ; Yağı əl çək torpağımdan : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 239-241.
**Məmmədli E.** Azərbaycan bayrağı : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 447.
**Məmmədli F.** Vətən: şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 282-283.
**Mən aşiq Vətən** yaxşı : bayatılar // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 29-35.
**Məsum S.** Ulusum : şeir // Türkün köçü. - B. : Şirvannəşr, 2003. - S. 9.
**Məsum S.** Vətən : şeir // Türkün köçü. - B. : Şirvannəşr, 2003. - S. 7-8.
**Məsum S.** Vətən : şeir // Türkün köçü. - B. : Şirvannəşr, 2003. - S. 12.
**Musa R.** Hardasa kimsəsiz bir oba ağlar ; Qayıtsaq vətənə... : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 264-265.
**Musaoğlu Ş.** Ağ ümid // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.151.
**Musaoğlu Ş.** And içirik // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S. 163.
**Musaoğlu Ş.** Birinci batalyon // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.153.
**Musaoğlu Ş.** Bu vətəndir : şeir // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S. 48-49.
**Musaoğlu Ş.** Cənab leytenant // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.161.
**Musaoğlu Ş.** Çağırır Vətən // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.149.

**Musaoğlu Ş.** İgid əsgər, möhkəm dayan : Savaş türküləri // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.145.
**Musaoğlu Ş.** Səma şahinləri // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.155.
**Musaoğlu Ş.** Türk əsgəri // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S. 54-55.
**Musaoğlu Ş.** Vətən əmanəti // İgid əsgər, möhkəm dayan. - B. : Adiloğlu, 2003. - S.157.
**Müznib Ə.** Azərbaycan : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2006. - S. 37-38.
**Naibova R.** Birləşək, qoruyaq Vətənimizi : şeir // Taleyimi yaşayıram. - B. : Mütərcim, 2007. - S. 52-53.
**Naibova R.** Qalxın, vətən oğulları... : şeir // Taleyimi yaşayıram. - B. : Mütərcim, 2007. - S. 38.
**Naibova R.** Qəhrəmanlıq himnimiz // Taleyimi yaşayıram. - B. : Mütərcim, 2007. - S. 50-51.
**Naibova R.** Vətən, ay Vətən : şeir // Taleyimi yaşayıram. - B. : Mütərcim, 2007. - S. 43.
**Nəbioğlu N.** Azərbaycan bayrağı : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 419-420.
**Nəsib D.** Bu torpağın harayı : şeir // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 187-188.
**Novruz C.** Azərbaycan : poema // Seçilmiş əsərləri. - B. : Lider, 2004. - S. 260-283.
**Novruz C.** Azərbaycanı sevin, sevin Azərbaycanı : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2004. - S. 35-37.
**Novruz C.** Qana qan : şeir // Seçilmiє əsərləri. - B. : Lider, 2004. - S. 141-143.
**Novruz C.** Vətəni qorudun sənindir : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2004. - S. 98-99.
**Novruz C.** İxtiyarım olsa idi... : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 364-393.
**Nurəli T.** İki əsir qız haqqında : şeir // Azərbaycan harayı. -

B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 242-243.
**Ol Ə.** Azərbaycan ; İstiqlal : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 383-386.
**Rahim M.** Bizim yurdun : şeir // Seçilmiş əsərləri. - B. : Avrasiya Press, 2006. - S. 175.
**Rahim M.** Yurdumun : şeir // Seçilmiş əsərləri. - B. : Avrasiya Press, 2006. - S. 172-173.
**Rahim M.** Azərbaycanım mənim : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 165-168.
**Rəfibəyli N.** Mən sənin torpağından : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 170-171.
**Rəfibəyli N.** Vətən duyğuları : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 108-109.
**Rəzmçu Ə.** And olsun : şeir // Vətən sevgisi. - 2011. - S. 311.
**Rövşən R.** Həsrət ; Qarabağ gözəli : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 340-344.
**Rüstəm S.** Azərbaycan : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - B. : Çaşıoğlu, 2010. - S. 266.
**Rüstəm S.** Yad gül dərə bilməz ; Azərbaycandan ayrılmaz : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 148-149.
**Rüstəm S.** Anam torpaq : şeir // Seçilmiş əsərləri 3 cilddə. C.1. - Bakı : "Şərq-Qərb", 2005. - S.80.
**Rüstəm S.** Azərbaycandan ayrılmaz : şeir // Seçilmiş əsərləri 3 cilddə. C.1. - Bakı : "Şərq-Qərb", 2005. - S.40.
**Rüstəm S.** Vətən : şeir // Seçilmiş əsərləri 3 cilddə. C.1. - Bakı : "Şərq-Qərb", 2005. - S.67.
**Rüstəm S.** Vicdanımsan, Azərbaycanım! : şeir // Seçilmiş əsərləri 3 cilddə. C.1. - Bakı : "Şərq-Qərb", 2005. - S.173.
**Rüstəmxanlı S.** Ruhumuz sərhədsiz olduğu üçün ; Sağ ol ana dilim : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 345-350.

**Rüstəmxanlı S.** Vətən : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 11-12.
**Rüstəmxanlı S.** Vətən mənə əl elədi : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 262-263.
**Rza X. (Ulutürk).** Vətən : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.I. - B. : Şərq-Qərb, 2005. - S. 89-90.
**Rza R.** Vətən dedim ; Ərk qalası ; Soruş : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 150-156.
**Rzaquluzadə M.** Vətən nəğməsi : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2006. - S. 21-22.
**Sadıq F.** Əlifbanı bilməyən nənəmin əlyazması ; Ucal bayrağım : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 207-211.
**Sadıq F.** Tanrı türkü qorusun ; Salam, çadırdaşım ; Marş ; Azərbaycan əsgərinə : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 76-81.
**Sadıq F.** Torpaq : şeir // Taleyin acığına. - B. : Çinar-Çap, 2003. - S. 5.
**Sadiq İ.** Azərbaycan bayrağına : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 454.
**Sadıq İ.** Qanlı çay daşı : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. . - S. 422-445.
**Səfərli İ.** Azərbaycanım : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 16-17.
**Səfərli İ.** Laçın dağlarında : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 117-118.
**Səfərli İ.** Sənə qurban canım, Azərbaycanım! : şeir // Seçilmiş əsərləri. - B. : Lider, 2005. - S. 13-14.
**Səhhət A.** Vətən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 118-119.
**Sərxanlı S.** Vətən nəğməsi : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 363-364.
**Şəmşir (Aşıq).** Vətənin ; Mən Dədə Şəmşir ; Görəydim ; Torpaq ; Yadıma düşəndə : Vətən haqqında şeirlər // Vətənə

nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 75-79.
**Tağızadə R.** Şəhid məktubları : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 474-476.
**Təbrizi Q. (Səbri).** Bütöv Azərbaycan ; Məmləkətim : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 324-325.
**Təhməz B.** Döyüşə gir Vətən oğlu : şeir // Seçilmiş əsərləri. - B. : Araz, 2010. - S. 59.
**Təhməz B.** Yaralıdır Ana torpaq : şeir // Seçilmiş əsərləri. - B. : Araz, 2010. - S. 90.
**Vahabzadə B.** Azərbaycan ; Sevdim, bildim ki... ; Azərbaycan ; Vətən olmaz ; Vətən : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 177-181.
**Vahabzadə B.** Azərbaycan oğluyam : şeir // Seçilmiş əsərləri. 2 clddə. C.I. - B. : Öndər, 2004. - S. 32-34.

**Vahabzadə B.** Gülüstan : poema // Seçilmiş əsərləri. – B.: Çaşıoğlu, 2005. – S. 415-420. – Poema 1959-cu ildə yazılmışdır.

**Vahabzadə B.** İstiqlal : "Gülüstan" poemasının II hissəsi // Seçilmiş əsərləri. – B.: Çaşıoğlu, 2005. – S. 415-420. – Poema 1999-cu ildə yazılmışdır və M.Cöhrəqanlıya ünvanlanmışdır.

**Vahabzadə B.** Şair - Vətən : şeir // Seçilmiş əsərləri. 2 clddə. C.I. - B. : Öndər, 2004. - S.
**Vahabzadə B.** Utanıram : şeir // Seçilmiş əsərləri. 2 clddə. C.I. - B. : Öndər, 2004. - S. 138-141.
**Vahabzadə B.** Vətən marşı : şeir // Seçilmiş əsərləri. 2 clddə. C.I. - B. : Öndər, 2004. - S. 132.
**Vahabzadə B.**Vətəndən-vətənə : şeir // Seçilmiş əsərləri. 2 clddə. C.I. - B. : Öndər, 2004. - S. 16-17.
**Vahid Ə.** Vətən ; Vətəndir : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 172-173.
**Vahid Ə.** Şuşamızın işğal gününə ; Qarabağım qaçırılmış

bakirə bir qız ; Qaçqın şəhərciyin qəbristanlığı ; Çadır uşağı : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 179-181.
**Vəliyev İ.** Əsgər andı ; Qarabağım ; Vətən qürbət oldu ; Başım üstə dar ağacı ; Yurd yerində qalan torpaq : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 189-192.
**Vətənoğlu B.** Azərbaycan : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - B. : Çaşıoğlu, 2010. - S. 277-278.
**Vurğun S.** Azərbaycan : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - B. : Çaşıoğlu, 2010. - S. 261-265.
**Yaqub M.** Bir əsgərin tanrı duası ; Öyrəşdi ; Millət... Millət... ; Sabir dərdi ; Heyf, millətim! : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı
**Yaqub M.** Sevincə nə var ki ; Torpaq : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 259-262.
**Yaqub Z.** Ordum varsa, yurdum var ; And yerimiz : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 351-354.
**Yaqub Z.** Şair harayı : poema // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 394-405.
**Yıldırım A.** Azərbaycanım : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - B. : Çaşıoğlu, 2010. - S. 260.
**Yusifqızı M.** Göyərin, qardaş! : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 463.

Ədəbiyyat siyahısı biblioqrafiya şöbəsinin müdiri Sevil Əhmədovaya aiddir.

Kompyuter yığımı
və dizayn **Ruhiyyə Məmmədli**
Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz